# Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi tədris ilinə yeni uğurlarla başladı

Peşə təhsili ölkənin sosial-iqtisadi inkişafına təkan verən aparıcı sahələrdən biridir. Son illərdə ölkəmizdə peşə təhsili sahəsində əhəmiyyətli tədbirlərin həyata keçirilməsi, yeni tədris binalarının istifadəyə verilməsi, peşə təhsilinə xarici təcrübənin tətbiq edilməsi və s. kimi görülən işlər həmin sahədə qazanılmış uğurların baza-sı rolunu oynayır.

Ölkə Prezidentinin Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq Elm və Təhsil Nazirliyi tərəfindən həmin sahəyə tətbiq edilən layihələrin reallaşdırılması üzrə böyük işlər aparılmışdır. Bütün bunlar dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil islahatlarının və ölkəmizin regional inkişaf layihələrinin daha bir göstəricisidir.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində turizm, otelçilik, kənd təsərrüfatı və digər mühüm ixtisaslar üzrə kadr hazırlığı aparılır. Tələbələr üçün yaradılan şərait onların bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün əlverişli imkanlar açmaqla bərabər həm də gələcək karyeralarına təkan verir.

Qeyd edək ki, mərkəzdə, ümumilikdə, 1000 tələbənin təhsil alması mümkündür. Hazırda burada 32 ixtisas üzrə tədris aparılır və bu ixtisaslarda 985 şagird peşə öyrənir. Tələbə kontingentinin sayı 720 nəfərdir.

Hal-hazırda Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində ümumi kadr heyətinin sayı 175, bundan inzibati-idarə heyəti - 35, inzibati-təsərrüfat heyəti - 36, İTU - 41, müəllimlər - 62 nəfərdir.

Mərkəzdə təhsil dövlət vəsaiti hesabına və ödənişli əsaslarla aparılır. Ümumi orta (9-cu sinif) təhsil bazasından daxil olmaqla təhsil müddəti 1 il, 2 il və 3 illik (ilsey) qruplarda, tam orta (11-ci sinif) təhsil bazasından isə 1 illik qruplarda peşə öyrənmək imkanı vardır. İxtisaslar çox şaxəli və rəngarəngdir:

Publik hüquqi şəxs olduqdan sonra mərkəzdə kadr hazırlığında daha bir uğurlu yeniliyə imza atılmışdır. Qəbələ Dövlət Peşə



Təhsil Mərkəzində artıq 3-cü ildir ki, yüksək texniki peşə təhsil səviyyəsinin tədrisi aparılır. Qeyd edək ki, yüksək texniki peşə təhsili səviyyəsi - peşə təhsil pilləsinin ən yüksək səviyyəsi olmaqla subbakalavr ixtisas dərəcəsi üzrə kadr hazırlığını nəzərdə tutur. Bu təhsil səviyyəsi müxtəlif texnologiya və texniki proseslərin tətbiqi, uyğunlaşdırılması və optimallaşdırılması üzrə işləri icra edəcək nəzəri və praktiki bacarıqlara sahib kadrların hazırlanmasını həyata keçirir. Peşə təhsili ilə ali təhsil pilləsi arasında keçid imkanlarını təmin edir.

Veb dizayn və proqram təminatı, mehmanxana və restoran işinin təşkili və idarə edilməsi ixtisasları üzrə, baytarliq və heyvandarlıq işi, mühasibat uçotu, elektronika və kommunikasiya sistemlərinin istismarı, kiber təhlükəsizlik, sənaye və mülki binalarda elektrik avadanlıqlarının quraşdırılması və istismarı, kompuyter sistemlərində proqramlaşdırma ixtisasları üzrə yüksək texniki təhsil verilir. Əsas məqsəd işəgötürənlərlə birgə iş yerinin tələblərinə uyğun ixtisas üzrə texniki və idarəetmə səriştələrinə malik kadr hazırlığını həyata keçirmək və əmək bazarının tələblərini ödəməkdir. Bu ixtisaslara yiyələnən mütəxəssislər subbakalavrlara bərabər tutulan bütün imtiyazlara sahib olur və təhsilin sonrakı pilləsinə rahat keçid əldə edirlər.

Qeyd edək ki, 2022 - 2023-cü tədris ilini uğurla başa vurmuş 61 nəfər tələbəyə tam orta təhsil haqqında sənədlər təqdim edilmişdir.

Məzunlar içərisində cari il ərzində paytaxt Bakı və bölgələrin bir sıra işəgötürən müəssisələrində aşpaz, baş aşpaz, şef şirniyyatçı və s. kimi vəzifələrə təyin olunanlar, fərdi sahibkar kimi fəaliyyətə başlayanlar mövcuddur.

Mərkəz işəgötürən müəssisələrlə sıx əməkdaşlıq edir, belə ki, 70-dən çox dövlət və özəl təşkilatlarla müqavilələr imzalanmışdır. Yalnız tələbələrin təcrübəsi zamanı deyil, ümumiyyətlə tədris prosesində biznes müəssisələrinin nümayəndələrinin yaxından iştirakı təmin edilir.

Yeni tədris ilində qəbulun keyfiyyətli aparılması ilə bağlı 01-10 avqust tarixlərində Qeyri-Hökumət Təşkilatlargna Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Sosial İqtisadi İnkişafa Dəstək" İctimai Birliyi tərəfindən həyata keçirilən "Peşə təhsilinin təbliği klubu" - regionlarda peşə təhsili müəssisələrinə ekskursiyaların təşkili layihəsi çərçivəsində Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində silsilə təlimlər keçirilmişdir.

2023 - 2024-cü tədris ilində tədris olunacaq Arıçı ixtisasına vətəndaşların təşviqi məqsədilə Qəbələ rayon Arıçılar Assosiasiyasının üzvləri ilə görüşlər keçirilmiş, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Qəbələ Regional Gənclərin Resurs Mərkəzi" İctimai Birliyi tərəfindən həyata keçirilən Müharibə iştirakçılarının məşğulluğunun təmin edilməsi məqsədilə "Arıçılığın inkişafı mərkəzi"nin yaradılması layihəsi çərçivəsində tədbirlər baş tutmuşdur.

2023 - 2024-cü tədris ili üzrə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində tədris olunacaq yeni ixtisaslar ilə bağlı vakansiyalar Peşə Təhsili üzrə Dövlət Agentliyinin rəsmi saytında yerləşdirilmiş, müraciət edən şəxslər imtahan və müsahibə mərhələsini uğurla keçərək mərkəzin əməkdaşına çevrilmişdir.

**"Qəbələ"**

# Şəhərimizi təmiz saxlayaq

vətəndaşlar tərəfindən kanalın kənarına kağız, sellofan, plastik və şüşə qablar və s. məişət tullantılarının atıldığı aşkar olunmuşdur.

Bu cür vəziyyət həmin sahədə antisanitariya vəziyyətinin yaranmasına gətirib çıxartmaqla yanaşı, həm də ətraf mühitə ciddi zərər vurur, həşəratların artıb çoxalmasına, ilin isti fəsillərində iy və üfunətin yayılmasına səbəb olur.

Bundan başqa güclü yağışlar yağdığı zaman kanalın tullantılarla dolması nəticəsində kanalın suyu daşaraq yaxınlıqdakı həyətlərin su basması halları müşahidə olunmuşdur.

Kanalın rayon mərkəzi xəstəxanasının yanından keçən hissəsində kanal demək olar ki, qumla dolmuşdur. Ona görə də güclü yağışlar yağan zaman kanalın bu hissəsində kanalın daşması təhlükəsi yaranmışdır. Kanalın mərkəzi bazarın qarşı-



sından keçən sahəsində kanal kol-kosdan və digər bitkilərdən təmizlənməmişdir.

Şəhərin H. Əliyev Prospektinin, həmcinin Nəriman Nərimanov küçəsinin kənarı ilə axan digər kanala demək olar ki, cay suyu qoşulmur. Bu kanal ancaq yağış sularının axıdılması funksiyasını daşıyır. Şəhərin 28 May küçəsində "Emil" ticarət mərkəzinin arxa hissəsindən keçən bu kanalın üstünə panel döşənmişdir. Lakin həmin sahədə panel örtüklərinin biri sındığına görə götürüldüyündən kanalın həmin sahəsinə ətrafda yerləşən ticarət obyektləri tərəfindən məişət tullantıları atılır. Bu vəziyyət də kanalın tutulmasına manee olmaqla güclü yağışlar yağan zaman tullantıların axaraq kanal boyu ətraf ərazinin cirklənməsinə səbəb olur.

Bu kanalın Nəriman Nərimanov, Taleh Şirinov küçələrində yerləşən fərdi yaşayış evlərinin yanından keçən bəzi hissəsində kanalın kol-kosdan təmizlənmədiyi, bəzi vətəndaşlar tərəfindən məişət tullantılarının kanala atıldığı müşahidə olunmuşdur.

Rayon GEM-i tərəfindən "Emil" ticarət mərkəzinin arxa tərəfində kanalın üstündəki sınmış panelin yenisi ilə əvəz olunması, kanala tökülmüş tullantıların həmin sahədən təmizlənməsi ilə əlaqədar Mənzil İstismarı və Kommunal Müəssisələri Kombinatına məktub göndərilmişdir. Bundan başqa şəhər ərazisindən keçən digər kanalın rayon mərkəzi xəstəxanasının yanından və mərkəzi bazarın qarşısında olan hissəsində tullantıların təmizlənməsi ilə əlaqədar Mənzil İstismar və Kommunal Müəssisələri Kombinatına və şəhər bələdiyyəsinə məktub göndərilmiş tələb və təkliflər verilmişdir. Bu sahədə müəyyən işlər görülsə də kanalın üstündəki panelin yenisi ilə əvəz olunmaması, həmin yerə tullantıların atılması yenə də müşahidə olunur. Bundan başqa qeyd olunan ərazidə yaşayan vətəndaşlarla məişət tullantılarının daşınması üçün müqavilənin bağlanması, tullantıların daşınması sahəsində işlərin gücləndirilməsi ilə əlaqədar Mənzil İstismarı və Kommunal Müəssisələri Kombinatına məktub göndərilərək tövsiyə və tapşırıqlar verilmişdir.

Evlərin yanından keçən kanalda təmizlik işləri aparmayan, kanala, kanal ətrtafına məişət tullantıları atan bir sıra vətəndaşlar rayon GEM-nə dəvət edilmiş, onlarla maarifləndirici söhbətlər aparılmışdır.

İnzibati orqanlar tərəfindən bir sıra şəhər sakinlərinə məişət tullantılarının müəyyənləşdirilməyən yerlərə atılması ilə əlaqədar cərimə tədbiri görülmüşdür.

Qeyd olunan küçələrdə yaşayan şəhər sakinləri evlərinin yanından keçən kanalın kol-kosdan təmizləməli, kanala və yaxud digər müəyyənləşdirilməyən yerlərə məişət tullantıların atılmasına yol verməməlidir. Onlar evlərindən hasil olan məişət tullantılarının atılması üçün Mənzil İstismarı və Kommunal Müəssisələri Kombinatı ilə müqavilə bağlamalı, tullantıların vaxtlı-vaxtında daşınmasına nail olmalıdır.

Gəlin şəhərimizi təmiz saxlayaq. Şəhərimizin təmiz, səliqəli və sahmanlı olması hər bir vətəndaşın ümdə borcu olmalıdır. Rayonumuzun yaşayış məntəqələrinin səliqə-sahmanlı və cəlbedici olması, insan sağlamlığının qorunması ilə yanaşı rayonda turizm inkişafına böyük təsir göstərən amildir.

Turzmin inkişafı isə rayon iqdisadiyyatının inkişafına hər bir rayon sakininin rifahına müsbət təsir göstərəcəkdir.

**Atif MƏMMƏDOV,**
**sanitar şöbə müdiri.**

## İTMİŞDİR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Qəbələ Ərazi İdarəsi tərəfindən Qəbələ rayon Vəndam qəsəbə sakini **Piriyev Famil Şamil oğluna** verilmiş reyestr nömrəsi 406013006734, AA 004667 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Bılıx kənd sakini **Əhmədov Elnur Şərəfəddin oğluna** məxsus MTZ-80 markalı təkərli traktorun **AZ 36 T-400 saylı qeydiyyat nişanı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Qəbələ Ərazi İdarəsi tərəfindən Qəbələ şəhər sakini **Mustafayev Elsevər Elxan oğluna** verilmiş reyestr nömrəsi 406013112432, AA№ 542095 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

## ALLAH RƏHMƏT ELƏSİN!

"Qəbələ" qəzetinin kollektivi qəzetin müxbiri **Eyvazlı İlahəyə** əzizi

**ŞƏFAYƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Redaktor
Azad Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1.210